Gömrük xidməti hər bir dövlətin müstəqilliyinin əsas atributlarından biridir
Heydər ƏLİYEV

GÖMRÜK XƏBƏRLƏRİ

29 YANVAR 2022-ci il
№ 2 (1225)

Qəzet 1995-ci il iyunun 30-dan çıxır

CUSTOMS NEWS | Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin orqanı | ВЕСТНИК ТАМОЖНИ

Prezident İlham Əliyev Ümumdünya Gömrük Təşkilatının Baş katibini videoformatda qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 28-də Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriyanı videoformatda qəbul edib.

Prezident İlham Əliyev Azərbaycanla Ümumdünya Gömrük Təşkilatı arasında səmərəli əməkdaşlığı və təşkilatın ölkəmizə göstərdiyi dəstəyi qeyd edərək, Kunio Mikuriya ilə əvvəllər keçirdiyi görüşləri və aparılmış müzakirələri məmnunluqla xatırladı. Dövlətimizin başçısı Ümumdünya Gömrük Təşkilatının Baş katibinin Azərbaycanla əməkdaşlığı daim diqqət mərkəzində saxlamasını yüksək qiymətləndirdiyini, təşkilatın dəyərli tövsiyə və məsləhətlərinin ölkəmizdə bu sektorun inkişafına töhfə verdiyini diqqətə çatdırdı.

Baş katib Kunio Mikuriya Azərbaycanda gömrük xidmətinin yaradılmasının 30 illiyi ərəfəsində Bakıda olmasından məmnunluğunu ifadə etdi, ölkəmizin regionda və dünyada rolunun artması münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı. O, rəhbərlik etdiyi təşkilatın Azərbaycanda gömrük sahəsində aparılan islahatlara dəstəyinin davam edəcəyini vurğulayaraq, Azərbaycanın regional inkişaf və nəqliyyat qovşağı mərkəzinə çevrildiyini bildirdi. Kunio Mikuriya Cənubi Qafqaz regionunda yaranmış sabitliyin regional əməkdaşlıq, insanlararası təmaslar və nəqliyyat bağlantılarının inkişafı üçün əlverişli imkanlar yaratdığını qeyd etdi.

Prezident İlham Əliyev ölkəmizin əlverişli coğrafi mövqeyi, infrastruktura yatırılmış investisiyalar, qonşu dövlətlərlə qurulmuş əlaqələr sayəsində Azərbaycanın regionun nəqliyyat-logistika mərkəzinə çevrildiyini bildirdi və regional bağlantıların əməkdaşlıq üçün əlverişli mühit yaratdığını diqqətə çatdırdı. Dövlətimizin başçısı regional əməkdaşlıq məsələlərinə toxunaraq, COVID-19 pandemiyasının yaratdığı qlobal iqtisadi böhrana baxmayaraq, Azərbaycanın keçən il əsas tərəfdaş dövlətlərlə ticarət dövriyyəsinin artmasının ölkə iqtisadiyyatının bərpasının və inkişafının göstəricisi olduğunu bildirdi. Azərbaycan Prezidenti keçən il iqtisadiyyatın 5 faizdən çox, qeyri-neft sektorunun 7 faiz, qeyri-neft sənaye sektorunun isə 20 faiz artmasının aparılmış islahatların nəticəsi olduğunu qeyd etdi. Prezident İlham Əliyev Ermənistan və Azərbaycan arasında münaqişənin bitməsindən sonra regionda əməkdaşlıq üçün yeni imkanların yarandığını vurğuladı.

Görüşdə Azərbaycan ilə Ümumdünya Gömrük Təşkilatı arasında əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

President Ilham Aliyev received in video format Secretary General of World Customs Organization

President of the Republic of Azerbaijan Ilham Aliyev has received in a video format Secretary General of the World Customs Organization (WCO) Kunio Mikuriya.

Hailing the fruitful cooperation between Azerbaijan and the World Customs Organization and the support of the organization for the country, President Ilham Aliyev recalled with pleasure previous meetings and discussions he held with Kunio Mikuriya. The head of state hailed the fact that the cooperation with Azerbaijan has always been in the focus of attention of the World Customs Organization's Secretary General, pointing out that the organization's valuable recommendations and advice contributed to the development of this sector in the country.

Secretary General Kunio Mikuriya expressed satisfaction with his visit to Baku ahead of the 30th anniversary of the establishment of the customs service in Azerbaijan and congratulated President Ilham Aliyev on the growing role of the country in the region and across the world.

Emphasizing that his organization will continue to support customs reforms in Azerbaijan, he noted that Azerbaijan has become a center of regional development and transport hub. Kunio Mikuriya said that the stability in the South Caucasus region has created favorable opportunities for the development of regional cooperation, people-to-people contacts and transport links.

President Ilham Aliyev noted that Azerbaijan has become a transport and logistics center in the region thanks to the country's favorable geographical position, investments in infrastructure, and relations with neighboring countries, adding that regional ties create a favorable environment for cooperation. Pointing to the issues of regional cooperation, the head of state said that despite the global economic crisis caused by the COVID-19 pandemic, the increase in trade with key partner countries for Azerbaijan last year was an indicator of the country's economic recovery and development.

The President of Azerbaijan described last year's growth of the economy by more than 5 percent, the non-oil sector by 7 percent and the non-oil industry by 20 percent as a result of reforms. President Ilham Aliyev hailed new opportunities for cooperation in the region after the end of the conflict between Armenia and Azerbaijan.

The sides exchanged views on prospects for developing cooperation between Azerbaijan and the World Customs Organization.

30 YANVAR
Dövlət Gömrük Komitəsinin yaranmasının
30 İLLİYİ
münasibətilə bütün gömrük əməkdaşlarını təbrik edirik!

Kunio Mikuriyanın "Dostluq" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Ümumdünya Gömrük Təşkilatı arasında əməkdaşlığın inkişafında xidmətlərinə görə Kunio Mikuriya "Dostluq" ordeni ilə təltif edilsin.

İlham Əliyev,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 yanvar 2022-ci il

Sülh missiyası, quruculuq zamanı

Müstəqilliyinin bərpasından ötən 30 ildə əldə etdiyi nailiyyətlərlə Cənubi Qafqazın lider dövləti statusuna sahiblənən Azərbaycan bu gün həm də sivilizasiyalar arasında mənəvi körpü rolunu oynayır. Demokratik inkişaf yolunu seçmiş Azərbaycanın səsi dünyanın ən mötəbər kürsülərindən eşidilir.

Azərbaycan öz yüksəlişi ilə dünyanı təəccübləndirməyi bacarır. Müəllifi olduğu parlaq uğurlara diqqət cəlb edir. Bu təcrübənin öyrənilməsinə, başqa ölkələrdə, cəmiyyətlərdə də belə unikal addımların tətbiqinə meyil yaradır. Bütün bunlar dünya inkişafının hərəkətverici qüvvələrindən birinə çevrilmək deməkdir. Bu tərəqqinin mərkəzində olmaqdır. Tarixin axarını müəyyənləşdirmək bacarığıdır.

Azərbaycan dövləti hazırda Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin parlaq uğurları sayəsində tarixin axarını dəyişir. Bu axarı bütün bəşəriyyət üçün faydalı olan, davamlı inkişafa, insanların rifahına xidmət edən daha geniş bir məcraya yönəldir. Bu zaman yeni maraqlar formalaşır. Gələcəklə bağlı müasir strateji baxışlar müəyyənləşir. Qlobal iqtisadiyyat yeni imkanların axtarışına çıxır.

Prezident İlham Əliyevin yürütdüyü məqsədyönlü siyasət sayəsində ölkəmiz dünyanın dəyişən meyillərini hazırlıqlı qarşılayır. Ona görə də indi Azərbaycan bir çox ölkədən fərqli olaraq qlobal dəyişikliklərin kənar seyrçisi deyil, bu dəyişiklikləri yaradanlardandır. İnkişaf proseslərini irəli aparanlardandır. Onu yeni-yeni mütərəqqi təcrübələrlə zənginləşdirənlərdəndir. Ortaya qoyduğu nümunələrlə başqaları üçün də model təqdim edənlərdəndir.

davamı 2-ci səh.

Baş nazir Əli Əsədov Ümumdünya Gömrük Təşkilatının Baş katibi ilə görüşüb

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov yanvarın 28-də Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriya ilə görüşüb.

Görüşdə Azərbaycanda bütün istiqamətlərdə, o cümlədən gömrük sahəsində həyata keçirilən genişmiqyaslı islahatlar barədə söhbət açılıb.

Görüş zamanı Azərbaycan ilə Ümumdünya Gömrük Təşkilatı arasında həyata keçirilən uğurlu əməkdaşlıq yüksək qiymətləndirilib, əlaqələrin inkişaf perspektivləri müzakirə olunub.

Sülh missiyası, quruculuq zamanı

əvvəli 1-ci səh.

44 günlük Vətən müharibəsindəki böyük qələbəmizdən sonra Azərbaycanın əsas arzusu məhz sülhə nail olmaqdır. Hər hansı iddiaları, aqressiv meyilləri kənara qoyub regionun inkişafı barədə düşünməkdir. Qələbədən sonra yaranmış yeni tarixi reallıqdan məqsədyönlü şəkildə bəhrələnməkdir. Bütün region dövlətlərinin mövcud imkanlardan gələcək inkişaf üçün faydalana bilməsidir. Bu xoş niyyəti Prezident İlham Əliyev öz çıxışlarında, bəyanatlarında səsləndirir. Yanvarın 12-də yerli televiziya kanallarına müsahibəsi zamanı da dövlət rəhbərimiz Azərbaycanın sülh arzusunu bir daha bəyan etdi.

Ermənistanın böyük ehtimalla MDB məkanında baş verən son hadisələrə bel bağlayaraq müəyyən dəstək ümidi ilə sərhəddə törətdiyi təxribatlara münasibət bildirərkən Ali Baş Komandan xüsusi vurğuladı ki, onlar İkinci Qarabağ müharibəsindəki kimi, kimlərinsə onlara yardım edəcəyindən asılı olmayaraq, Azərbaycan istədiyinə nail olacağını, heç kimin, heç nəyin bizi dayandıra bilməyəcəyini unutmamalıdırlar: "Bizi dayandıran sadəcə odur ki, üçüncü müharibə istəmirik, bu, bizim planlarımızda yoxdur. Biz istəyirik ki, müharibə dövrü başa çatsın, istəyirik ki, normal əlaqələr yaradılsın, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü, nəhayət, tanısın. Biz bunu istəyirik. Amma əgər biz görsək ki, dediyim kimi, bizim üçün təhlükə var, o təhlükə elə yerindəcə məhv ediləcək".

Sülh ilk növbədə hər iki tərəfdən insan itkilərinin qarşısını almaqdan ötrü lazımdır. Vətənin haqq savaşında insanın canını fəda etməsi hər nə qədər şərəfli bir missiya olsa da, şəhidlərimiz qəlbimizdə əbədi yer tutsalar da, bütün ömürlər təkrarolunmazdır. Müharibədə hər bir fərdin ölümü təkcə onun yaxınlarından ötrü deyil, bütün xalq üçün böyük faciədir. İnsan dünyaya yaşamaq, yaratmaq, bəşər nəslini davam etdirmək üçün gəlir. Ona görə də tarix boyu insanları müharibələrdən, düşmənçilik əhvali-ruhiyyəsi ilə yaşayanların əsassız iddialarından qorumaq, mövcud ziddiyyətlərin sülh yolu ilə həllinə çalışmaq müdrik dövlət rəhbərlərinin ən böyük missiyası olub. Azərbaycan Prezidenti İlham Əliyev də bu missiyaya hər zaman sadiqdir. Bu, ulu öndər Heydər Əliyevin dövlətçilik fəlsəfəsindən əxz edilmiş yüksək dəyərdir.

Azərbaycan sülhə, danışıqlara münaqişənin həllinin əsas vasitəsi kimi baxırdı. Həll prosesinin təxminən 30 ilə yaxın müddət çəkməsi də bununla bağlı idi. Bu müddətdə ölkəmiz məsələnin müharibə etmədən, sülh yolu ilə həlli üçün mövcud olan bütün imkanları dəyərləndirirdi.

Ölkəmiz danışıqlar prosesinə hər zaman sadiq qaldı. Münaqişənin nizamlanması üzrə mandat daşıyan ATƏT-in Minsk qrupuna öz vəzifəsini yerinə yetirməkdən ötrü şərait yaratdı. Münaqişənin dinc yolla həllinin tərəfdarı oldu. Bütün diplomatik çevrələrdə, beynəlxalq təşkilatlarda Azərbaycanın haqq səsinin eşidilməsini istədi. İkili standartların kənara qoyulmasını, işğalçı ilə işğala məruz qalan tərəfin bərabər tutulmamasını, Ermənistanın təcavüzkar mövqeyindən çəkinməsi, işğal altında saxladığı Azərbaycan ərazilərindən çıxarılması üçün əməli addımların atılmasını tələb etdi.

Dövlət başçısı bütün bunlarla yanaşı, əgər danışıqlar alınmazsa, sülh prosesləri fayda verməzsə, münaqişənin hərbi yolla həlli variantını da heç zaman istisna saymadı. Azərbaycanda güclü ordu quruldu. Ölkəmizin hərbi potensialı gücləndirildi. Diplomatik çevrələrdə ölkəmizin mövqeləri möhkəmləndirildi. Azərbaycan özünə ilk növbədə dostlar qazandı. Ermənistanın illərlə yaratdığı yalanları, saxta mifləri ifşa edildi. Münaqişə ilə bağlı həqiqətləri beynəlxalq dairələr daha aydın dərk etməyə başladılar.

Sülh danışıqlarına sadiqlik göstərməklə yanaşı, dövlətimiz elə imkanlar formalaşdırırdı ki, hərbi əməliyyatlar başlanarsa, böyük itkilər olmadan, daha iri faciələrə yol açmadan cəmi bir neçə gün içində torpaqlarımız düşməndən təmizlənsin. Azərbaycan yalnız sülh danışıqlarının artıq heç bir səmərəsinin qalmadığını anlayandan, eyni zamanda Ermənistanın hərbi-siyasi təxribatları dözülməz şəkil alandan sonra silaha əl atdı və 30 ilin münaqişəsini cəmi 44 gün içində həll etdi. Bununla da işğalçıların torpaqlarımızdan çıxması barədə BMT-nin 30 ilə yaxındır havadan asılı qalmış qətnamələrini cəmi 44 gün müddətində icra etdi. Nəzərə almaq lazımdır ki, bu nəticənin özü də sülh dövrünün yaratdığı imkanlar sayəsində əldə olundu.

Artıq müharibə geridə qalıb. Azərbaycan Prezidentinin həyata keçirdiyi ardıcıl iş, diplomatik fəaliyyət sayəsində dünya birliyi Vətən müharibəsinin nəticələrini qəbul edir. Haqq savaşımızdakı qələbəmizə bizim üçün qaneedici səviyyədə münasibət göstərir. Əslində, bu münasibətin formalaşmasında da Azərbaycanın sülh missiyasının böyük rolu var. Məsələlərə obyektivlik prizmasından yanaşan hər kəs ölkəmizin regiona sülh, təhlükəsizlik, davamlı inkişaf arzusunu görür. Bu arzunun reallaşdırılması üçün ortaya qoyulan fədakar zəhməti dəyərləndirir. Azərbaycan Prezidentinin gələcəyə strateji baxışında bölgənin sabahı aydın təsəvvür edilir. Əgər belə bir gələcəyi yaratmaq mümkün olarsa, Cənubi Qafqaz regionu qısa müddətdən sonra dünyanın böyük inkişaf məkanlarından birinə, sülh, inkişaf cənnətinə çevrilə bilər. Bunun üçün isə təbii ki, Azərbaycanın xoş niyyətlərlə atdığı addımların qarşılığı verilməlidir.

Sülhün əldə olunmasını, qarşılıqlı əlaqələrin bərpasını, ölkələrin ərazi bütövlüyünə hörmət prinsipləri əsasında normal qonşuluq münasibətlərinin qurulmasını ən azı Azərbaycan qədər hamı istəməlidir. Ölkəmiz bu istəklə sülh gündəliyini artıq Ermənistan tərəfinə təqdim edib. Prezident İlham Əliyev müsahibəsində bu məqama toxundu: "Biz, əslində, bu sülh gündəliyini onlara təqdim etmişik və delimitasiya ilə bağlı, əgər o baş tutarsa, ondan sonra demarkasiya ilə bağlı çox aydın təkliflər irəli sürmüşük. Bildiyiniz kimi, ilkin mərhələdə Ermənistan cavab vermirdi, nə hə, nə yox deyirdi. Yəni, bu, bir daha onu göstərir ki, Ermənistan rəhbərliyində gələcəklə bağlı açıq-aydın təsəvvür yoxdur. Bizim siyasətimiz isə tam aydındır - istər müharibə ilə bağlı, istər keçmiş Qarabağ münaqişəsinin baş vermiş həlli ilə bağlı, istər gələcəklə bağlı. Biz təklif etmişik ki, hər iki ölkə bir-birinin ərazi bütövlüyünü tanısın, sərhədlərin delimitasiyası ilə bağlı işlərə start verilsin, kommunikasiyaların açılması prosesinə start verilsin və sülh müqaviləsi imzalansın. Yəni, sülh müqaviləsinin imzalanması 100 faiz qarantiya olmasa da, hər halda, müharibə riskini böyük dərəcədə minimuma endirir".

Sülh qurucu insanların ən böyük arzusudur. Yalnız vandalizmi həyat tərzinə çevirənlər, dağıdıcılığı, insan faciələrini özünə qazanc bilənlər, xarabalıqlarda xoşbəxtlik axtaranlar müharibə arzusunda ola bilərlər. Necə ki, bunu mənfur qonşularımızın işğal dövründə yurdlarımızda törətdikləri dəhşətli vandalizm əməllərindən görürük. Bu illərdə onlar torpağın köksünə elə ağır yaralar vurublar ki, onu sağaltmağa illər gedəcək. Amma bütün çətinliklərə, böyük xərclərə rəğmən Azərbaycan bu yaraları da sağaldacaq. Azad yurdlarımız ən qısa zamanda yenidən gülüstana çevriləcək. Sülh bizə həm də bu işi uğurla həyata keçirmək, qələbəmizdən dərhal sonra bu torpaqlarda başlanmış genişmiqyaslı bərpa-quruculuq işlərini nizamında aparmaq üçün lazımdır.

44 günlük Vətən müharibəsində həyata keçirilən hərbi əməliyyatların peşəkar səviyyəsi, tətbiq edilən innovativ silahların qüdrəti ilə dünyanı heyran qoyan Azərbaycan bu gün də apardığı bərpa-quruculuq proseslərinin sürəti, miqyası ilə hər kəsi heyrətləndirir. Hətta işğaldan əvvəl heç bir hava limanının olmadığı Füzulidə indi ən müasir tələblərə cavab verən, beynəlxalq statuslu hava limanı var və başqa azad yurdlarımızda da yeni hava limanları tikilməkdədir.

Torpaqların minalardan təmizlənməsi sürətlə aparılır və zəruri infrastruktur qurulur. Abad yollar, digər kommunikasiya xətləri çəkilir. Azərbaycan Prezidenti bildirdi ki, təkcə Kəlbəcər, Laçın, Zəngilan, Qubadlı - Ermənistanla həmsərhəd olan yerlərdə - hərbi mövqelərimizə gedən istiqamətlərdə 700 kilometrə yaxın yol çəkilib. Əsgər və zabitlərimizin sərhəddə normal xidmət apara bilmələri üçün müasir infrastruktur qurulub. Bütün azad edilmiş torpaqlarımızda cəmi bir ildə 7 yarımstansiya inşa edilib və onlar hamısı ümumi dairəvi şəbəkəyə qoşulub. Kəlbəcər rayonuna qışda, qar şəraitində hündürlüyü 3500 metr olan Daşkəsəndən elektrik dirəklərinin çəkilməsi böyük fədakarlıq olmaqla Azərbaycanın yüksək potensialını göstərir.

Göygöldən Kəlbəcərə uzunluğu 11 kilometrdən çox olan tunel çəkilir. Kəlbəcərlə Laçın arasında 4 kilometr uzunluğunda ikinci tunel inşa edilməkdədir. Bu infrastruktur Göygöl-Gəncə istiqamətindən Kəlbəcərə rahatlıqla gəlməyə şərait yaradacaq. Bərdə-Ağdam avtomobil yolu inşa edilir, Naftalan Talış və Suqovuşanla birləşdirilir. Bu, həm Suqovuşanı, həm Ağdərə ərazisini turizm mərkəzinə çevirmək, eyni zamanda insanlarımızın bu ərazilərə qayıdışı planına xidmət edir. Azərbaycan "Zəfər yolu" kimi tarixə düşmüş Füzuli-Şuşa yolunu cəmi bir ilə çəkməyə nail olub. Hazırda ikinci magistral yol çəkilməkdədir. Füzuli-Hadrut, Füzuli-Cəbrayıl, Horadiz-Ağbənd, Zəngilan-Qubadlı-Laçın yolu, Laçın istiqamətində əlavə yolların tikintisi yönündə də işlər gedir. Eyni zamanda Bərdə-Ağdam, Horadiz-Ağbənd-Zəngəzur dəhlizinin bir parçası olan dəmir yollarının inşasına başlanılıb. İşğaldan azad edilmiş torpaqlarımızın mina təhlükəsi olmayan, kənd təsərrüfatı üçün artıq uyğun sayılan hissələrində əkin işləri aparılır. Azərbaycan xalqının simasında bu torpağın əbədi-əzəli sakinləri kimi ruzi-bərəkəti də özünə qayıdıb.

Şəhərsalma layihələri də uğurla icra olunur. Baş planları artıq hazır olan Şuşa və Ağdamda bu proses sürətli şəkildə həyata keçirilir. Vətən müharibəsində tətbiq etdiyi innovativ silahlarla XXI əsrin müharibəsini aparan Azərbaycan bərpa-quruculuq işlərində də dünyanın ən müasir texnologiyalarını tətbiq edir. Bərpa edilən yaşayış məntəqələri "Ağıllı şəhər", "Ağıllı kənd" konseptində qurulur. Azərbaycan bununla azad yurdlarımızın işğal dövründə itirilmiş illərini də geri qaytarır. Bu torpaqlar inkişaf axarına müasir çağdan qoşulur. Zəngilanın Ağalı kəndində yaradılan ilk "Ağıllı kənd"in inşası artıq başa çatıb. Yaxın vaxtlardan məcburi köçkünlərimizin ilk qrupunun ata-baba torpaqlarına qayıdışı başlanacaq. Şuşada böyük yaşayış kompleksinin təməli qoyulub. İşğaldan azad edilmiş digər şəhərlərimizin baş planlarının hazırlanması istiqamətində də tədbirlər həyata keçirilməkdədir.

Azərbaycan dövləti bu yurdların müasir inkişafı ilə yanaşı, azad ərazilərimizdəki tarixi abidələrimizi də həyata qaytarır. Bu abidələr əcdadlarımızın torpağın köksündəki nəcib izləridir. Şuşada, başqa azad şəhər və kəndlərimizdə tarixi abidələr bərpa olunur. Azərbaycan sülh amalını həm özümüzə, həm də digər xalqlara aid millimənəvi dəyərlərə hörmət ruhunda ifadə edir.

Ümumdünya Gömrük Təşkilatı ilə Azərbaycan arasında əlaqələr dinamik inkişaf edir

"Avrasiya regionunda gömrük sahəsində islahatlarla bağlı Azərbaycan gömrüyünün təcrübəsini hər zaman nümunə göstərirəm".

Bu fikirləri Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriya yanvarın 28-də Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyevlə görüşündə səsləndirib.

Ali qonağı salamlayan DGK sədri Səfər Mehdiyev ÜGT ilə Azərbaycan gömrüyü arasında səmərəli və işgüzar münasibətlərdən məmnunluqla bəhs edib və bu əməkdaşlıq çərçivəsində Azərbaycan gömrüyünün inkişafına müxtəlif sahələrdə göstərilən dəstəyə görə təşəkkürünü bildirib.

Komitə sədri Prezident İlham Əliyev tərəfindən gömrük sistemində də aparılan islahatlar nəticəsində şəffaflığın təmin olunması, fiziki təmasın minimuma endirilməsi, "kölgə iqtisadiyyatı"nın aradan qaldırılması, ölkəmizin ixrac və tranzit imkanlarının artırılması, beynəlxalq ticarətin asan və sürətli şəkildə həyata keçirilməsi istiqamətində mühüm nailiyyətlər əldə olunduğunu bildirib.

Vurğulanıb ki, həyata keçirilən islahatlar, tətbiq edilən yeniliklər hesabına, ümumilikdə ötən il xarici ticarət dövriyyəsinin 11 milyard dollara qədəri "Yaşıl dəhliz" buraxılış sisteminin iştirakçıları tərəfindən gömrük orqanına gəlmədən, gömrük əməkdaşı ilə təmas olmadan həyata keçirilib.

Komitə sədri bütün gömrük-keçid məntəqələrinin ən müasir texniki nəzarət vasitələri, rentgen avadanlıqları ilə təmin olunduğunu, yeni gömrük-keçid məntəqələrinin inşa edildiyini bildirib.

Qeyd edilib ki, ötən il fiskal sahədə, qaçaqmalçılıqla, xüsusilə narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizə istiqamətində mühüm nailiyyətlər əldə olunub. Səfər Mehdiyev Azəbaycanın 188 ölkə ilə ticarət əməliyyatları həyata keçirdiyini və bu ölkələrin gömrük orqanlarına güzgülü statistika əsasında məlumat mübadiləsi aparmaq məqsədilə müraciət olunduğunu diqqətə çatdırıb.

ÜGT-nin Baş katibi Kunio Mikuriya bir daha Azərbaycanda olmaqdan məmnunluq duyduğunu, səmimi qonaqpərvərliyə görə təşəkkürünü bildirib. Baş katib Prezident İlham Əliyevlə görüşündən, ÜGT ilə Azərbaycan arasında əlaqələrin dinamik inkişafından məmnunluqla bəhs edib.

Kunio Mikuriya Azərbaycanın bölgədə ticarət və nəqliyyat qovşağına çevrilməsi istiqamətində gömrük sistemindəki islahatların əhəmiyyətindən danışıb. Baş katib gömrük sahəsində əməliyyatların kağızsız texnologiyalarla, təmassız, rəqəmsal formatda həyata keçirilməsinin vacibliyini vurğulayıb və Azərbaycan gömrüyünün bu istiqamətdə əldə etdiyi təcrübənin nümunə təşkil etdiyini bildirib.

DGK sədrinin güzgülü statistika ilə bağlı təşəbbüsünü təqdir etdiyinin diqqətə çatdıran Baş katib Azərbaycan gömrüyünün ÜGT-nin Avropa regionuna sədr müavinliyi dövründə uğurlu fəaliyyət göstərdiyini vurğulayıb, əməkdaşlığın daha da inkişaf edəcəyinə əminliyini ifadə edib.

DGK Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsi

Relations between World Customs Organization and Azerbaijan are developing dynamically

"With regard to the reforms in the customs sphere in the Eurasian region I always refer to the experience of Azerbaijan's customs service."

Secretary General of the World Customs Organization (WCO) Kunio Mikuriya said this during his meeting with chairman of the State Customs Committee of the Republic of Azerbaijan, customs service Colonel-General Safar Mehdiyev on January 28.

Welcoming the honorable guest, chairman of the State Customs Committee Safar Mehdiyev praised the fruitful relations between the WCO and Azerbaijan's customs service and expressed his gratitude for the support provided for the development of the Azerbaijani customs in various fields.

The chairman of the committee said that as a result of the reforms carried out by President Ilham Aliyev in the customs system, significant achievements had been made in ensuring transparency, minimizing physical contact, eliminating the "shadow economy", increasing the country's export and transit opportunities, facilitating the international trade.

It was underlined that due to the reforms, innovations, last year up to $11 billion in foreign trade turnover was realized by the participants of the "Green Corridor" without coming to the customs bodies and without contacting with the customs officers.

The chairman of the committee said that all customs checkpoints had been provided with the state-of-the-art technical control equipment, X-ray equipment, and new checkpoints had been built.

It was noted that last year significant progress was made in the fiscal sphere, in the fight against smuggling, especially illicit drug trafficking. Safar Mehdiyev said that Azerbaijan conducted trade operations with 188 countries and the customs bodies of those countries had been applied to for exchanging information on the basis of mirror statistics.

Secretary General of the World Customs Organization (WCO) Kunio Mikuriya said he was pleased to be back in Azerbaijan, expressed his gratitude for hospitality. The Secretary General expressed satisfaction with his meeting with President Ilham Aliyev, dynamic development of relations between the WCO and Azerbaijan.

Kunio Mikuriya spoke about the importance of the reforms in the customs sphere in terms of turning Azerbaijan into a trade and transport hub in the region. The Secretary General underlined the importance of practicing customs operations via paperless technologies, in a contact-free, digital format, said the experience of Azerbaijan's customs service served as an example.

Praising the initiative of the chairman of the State Customs Committee on mirror statistics, the Secretary General stressed the success of the Azerbaijani customs service in capacity of the Vice-Chair of the WCO Europe region, and expressed his confidence in the further development of cooperation.

Press and Public Affairs Department of the State Customs Committee

Dövlət Gömrük Komitəsində Kollegiya iclası keçirilib

Yanvarın 26-da Dövlət Gömrük Komitəsinin 2021-ci il ərzindəki fəaliyyətinin yekunlarına həsr olunan Kollegiya iclası keçirilib.

Videokonfrans formatında keçirilən mərasimdə Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev bildirib ki, müstəqil Azərbaycanın memarı ulu öndər Heydər Əliyevin əsasını qoyduğu mükəmməl milli inkişaf konsepsiyası Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə xalq və ordu birliyinin nəticəsində 2020-ci il sentyabrın 27-də başlanan İkinci Qarabağ müharibəsi 44 gün ərzində qələbəmizlə başa çatdı və torpaqlarımız düşməndən azad edildi. 2021-ci ildə isə müharibədəki qələbəmizin bir ili xalqımız tərəfindən təntənəli şəkildə qeyd edildi.

Ötən 2020 və 2021-ci illər ərzində və bu gün də davam edən koronavirus pandemiyası insanların sağlamlığına təsir etməklə yanaşı, dünya ölkələrinin, o cümlədən Azərbaycan iqtisadiyyatına mənfi təsirini göstərib. Mövcud şəraitdə və gələcəyə hesablanan yeni strateji çağırışların yerinə yetirilməsi üçün büdcənin gəlirlər hissəsinin qeyri-neft sektorunun fəaliyyətindən daxilolmalar hesabına formalaşdırılması əsas hədəflərdən olub.

Son illər ölkədə həyata keçirilən islahatlar çərçivəsində gömrük orqanlarının da bir sıra yeniliklər tətbiq etdiyini diqqətə çatdıran Səfər Mehdiyev qeyd edib ki, fiskal, hüquqpozmalara qarşı mübarizə, gömrük nəzarəti, ticarətin asanlaşdırılması və şəffaflığın təmin olunması istiqamətində ciddi nailiyyətlər əldə olunub.

Komitə sədri vurğulayıb ki, gömrük sistemində aparılan struktur və kadr islahatları idarəetmənin təkmilləşdirilməsinə, kadrların peşə hazırlığının artırılmasına, bir sözlə, gömrük işinin müasir dünyanın çağırışlarına uyğun şəkildə yenidən qurulmasına münbit şərait yaradıb. Ən müasir idarəetmə strukturuna malik Azərbaycan gömrüyü fəaliyyətini nəzarətdən xidmətə doğru dəyişərək beynəlxalq ticarətin təhlükəsiz, asan və sürətli şəkildə reallaşdırılması, modern gömrük nəzarəti istiqamətində mühüm addımlar atır.

Sonra Kollegiyanın gündəliyindəki məsələlər müzakirə olunub.

"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 2021-ci ildəki fəaliyyətinin yekunları və qarşıda duran vəzifələr" barədə Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, gömrük xidməti general-leytenantı İsmayıl Hüseynov çıxış edib.

İsmayıl Hüseynov bildirib ki, COVID-19 pandemiyasının iqtisadiyyatda yaratdığı qlobal problemlərə baxmayaraq gömrük orqanlarının öz fəaliyyətini səmərəli şəkildə qurması nəticəsində büdcə öhdəliyinin yerinə yetirilməsi, yükdaşımaların asan və sürətli şəkildə həyata keçirilməsi, sərhədkeçmə proseslərinin sadələşdirilməsi, hüquqpozmaların qarşısının alınması istiqamətində mühüm nailiyyətlər əldə edilib.

Qeyd edilib ki, ötən illərdə olduğu kimi, 2021-ci ildə də Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin ölkə üzrə illik büdcə daxilolmalarında xüsusi çəkisi artıb və qanunla müəyyən olunan illik büdcə öhdəliyinin artıqlaması ilə yerinə yetirilməsinə nail olunub.

Belə ki, 2021-ci il üzrə Dövlət Gömrük Komitəsi üçün nəzərdə tutulan 3 milyard 900 milyon manat büdcə öhdəliyinə qarşı faktiki olaraq 4 milyard 342 milyon 967 min manat olmaqla, proqnoz göstəriciləri ilə müqayisədə 442 milyon 967 min manat artıq gömrük vergi və rüsumları toplanaraq dövlət büdcəsinə köçürülüb və illik büdcə öhdəliyinə 111,36 faiz əməl olunub.

2021-ci il ərzində Azərbaycan Respublikasının gömrük orqanları tərəfindən əməliyyat-axtarış və hüquq-mühafizə fəaliyyətinin gücləndirilməsi istiqamətində həyata keçirilən kompleks tədbirlər nəticəsində 17144 hüquqpozma faktı aşkar edilib. Hesabat dövründə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə əlaqədar 55 fakt aşkar olunub. Bu faktlar üzrə hesabat ilində ümumilikdə 3 ton 43 kiloqramdan çox narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları qanunsuz dövriyyədən götürülüb.

Məlumat verilib ki, "Yaşıl dəhliz" buraxılış sistemindən daimi istifadə hüququnun əldə olunması ilə əlaqədar 2021-ci il ərzində 206 xarici ticarət iştirakçısı müraciət edib. Daxil olan müraciətlərin təhlilinin nəticəsi olaraq 33 xarici ticarət iştirakçısına ixrac, 63 xarici ticarət iştirakçısına idxal əməliyyatları üzrə, ümumilikdə 96 xarici ticarət iştirakçısına "Yaşıl dəhliz" buraxılış sistemindən daimi istifadə hüququ verilib.

Qeyd olunub ki, hesabat ili ərzində elektron gömrük xidmətləri sahəsində Dövlət Gömrük Komitəsinin rəsmi saytında yeni funksional bölmələr yaradılıb, məlumatlar mütəmadi yenilənib.

2021-ci ildə "Smart Customs" mobil tətbiqinin yeni versiyası hazırlanıb, www.e.customs.gov.az portalı üzərindən göstərilən xidmətlərin sayı 13-ə çatdırılıb. Eyni zamanda e.customs.gov.az portalında təqdim edilən elektron xidmətlərdən 5-i mobil tətbiqə inteqrasiya edilib.

Sonra Naxçıvan MR Dövlət Gömrük Komitəsinin sədri Səhət Həbibbəyli, Əməliyyat və İstintaq Baş İdarəsinin rəisi Məsum Rəsulov, Dövlət Gömrük Komitəsi Akademiyasının rəisi Qulu Novruzov, Tibbi Xidmət İdarəsinin rəisi Ceyhun Məmmədov, Sosial İnnovasiyalar və Analitik Təhlil İdarəsinin rəisi Vüqar Əliyev çıxış edərək ötən dövr ərzində görülən işlər və qarşıda duran vəzifələr barədə məlumat veriblər.

Bundan başqa, iclasda "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 2022-ci il üçün İş Planı" təsdiq edilib.

Gömrük Sərnişin Məlumat Mərkəzinin açılış mərasimi

Yanvarın 25-də Dövlət Gömrük Komitəsinin Gömrük Sərnişin Məlumat Mərkəzinin açılışı olub.



Açılış mərasimində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev, Komitənin aidiyyəti strukturlarının rəhbərləri, Böyük Britaniyanın Azərbaycandakı səfiri Ceyms Şarp, BMT-nin rezident əlaqələndiricisi Vladanka Andreyeva, Böyük Britaniya Sərhəd Xidmətinin Avrasiya regionu üzrə rəhbəri Mateyu Bekinqem, BMT-nin Terrorizmə qarşı mübarizə İdarəsinin Terrorçuların səyahətləri ilə mübarizə şöbəsinin müdiri Kristin Erika Bredli, Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Vladimir Gjorgjiev və digər şəxslər iştirak ediblər.

Gömrük Sərnişin Məlumat Mərkəzi Dövlət Gömrük Komitəsi və Böyük Britaniyanın Sərhəd Xidməti arasında birgə həyata keçirilən "Hunter" layihəsi çərçivəsində və BMT-nin "Terrorçuların Səyahətləri ilə Mübarizə Proqramı"nın dəstəyi əsasında təsis edilib.

Mərkəzin açılışı münasibətilə keçirilən tədbirdə çıxış edən Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev Gömrük Sərnişin Məlumat Mərkəzinin fəaliyyətə başlamasının Azərbaycan gömrük xidməti üçün əlamətdar hadisə olduğunu bildirib.

Komitə sədri qeyd edib ki, ümummilli lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin apardığı zəngin dövlətçilik ənənələrinə söykənən uğurlu daxili və xarici siyasət ölkə iqtisadiyyatını sürətlə inkişaf etdirir və aparılan kompleks islahatlar müstəqil Azərbaycanı dünyanın tərəqqi edən ölkələri sırasında yer almasına şərait yaradıb.

Vurğulanıb ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsi nəticəsində işğal altındakı ərazilərimizin azad edilməsi regional inteqrasiyanın gücləndirilməsi, Azərbaycanla yanaşı, qonşu dövlətlərin də iqtisadi inkişafı üçün yeni imkanlar yaradıb. Azərbaycanın Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin qovşağında yerləşməsi iqtisadi inkişafa təkan verməklə yanaşı, öz növbəsində təhlükəsizliyin təmin olunması üzrə davamlı səmərəli tədbirlərin həyata keçirilməsini və bu istiqamətdə müasir texnologiyaların tətbiqini zəruri edir.

Ölkəmizin təhlükəsizliyini qorumaq, dayanıqlı sosial-iqtisadi inkişafı təmin etmək istiqamətində gömrük orqanlarının son illər həyata keçirdiyi tədbirlərin müsbət nəticələrindən də bəhs edən Komitə sədri fiskal, hüquqpozmalarla mübarizə, ticarətin asanlaşdırılması istiqamətində əldə edilən nailiyyətlər barədə məlumat verib.

Dövlət Gömrük Komitəsinin beynəlxalq əməkdaşlığa xüsusi önəm verdiyini söyləyən Səfər Mehdiyev bu istiqamətdə Böyük Britaniyanın aidiyyəti qurumları və BMT ilə işgüzar münasibətlərdən danışıb və onlara Azərbaycanda "Sərnişinlərə dair ilkin məlumat" (API) və "Sərnişin adlarının qeydiyyatı" (PNR) sistemlərinin qurulmasında göstərdikləri dəstəyə görə minnətdarlığını bildirib.

Komitə sədri ümidvar olduğunu bildirib ki, Gömrük Sərnişin Məlumat Mərkəzi məlumatların dövlət orqanlarına əvvəlcədən ötürülməsi və səmərəli risk idarəetmə sisteminin tətbiqi ilə dövlət qurumları, aviaşirkətlər və digər maraqlı tərəflər arasında mövcud prosedurların sadələşdirilməsinə, məlumat təhlili bazalarının inkişaf etdirilməsinə, səyahətçilərin gömrük-sərhəd buraxılış məntəqələrindən sürətli keçidinin təmin edilməsinə, ölkəmizin milli maraqlarına zərər verə biləcək şəxslərin və malların ölkəyə daxil olmasının vaxtında qarşısının alınmasına töhfə verəcək.

Böyük Britaniyanın Azərbaycandakı səfiri Ceyms Şarp ölkəmizin gömrük orqanları ilə səmərəli əməkdaşlıqdan, əldə edilən uğurlardan danışıb və gömrük əməkdaşlarının sərhədlərin təhlükəsizliyi baxımından diqqətəlayiq işlər gördüyünü, həyata keçirilən tədbirlərin ölkələrin təhlükəsizliyi baxımından mühüm əhəmiyyət daşıdığını bildirib.

BMT-nin rezident əlaqələndiricisi Vladanka Andreyeva Mərkəzin açılışını mühüm hadisə kimi qiymətləndirib və bunun səmərəli beynəlxalq əməkdaşlığın nəticəsi olduğunu bildirib. BMT nümayəndəsi gömrük orqanlarının təqdirəlayiq fəaliyyət həyata keçirdiyini, iqtisadi, milli və ekoloji təhlükəsizliyin təmin olunmasında, insanların rifah halının yaxşılaşdırılmasında mühüm rol oynadıqlarını diqqətə çatdırıb, qarşılıqlı əməkdaşlığın daha da gücləndirilməsinin vacibliyini vurğulayıb.

Böyük Britaniya Sərhəd Xidmətinin Avrasiya regionu üzrə rəhbəri Mateyu Bekinqem, BMT-nin Terrorizmə qarşı mübarizə İdarəsinin Terrorçuların səyahətləri ilə mübarizə şöbəsinin müdiri Kristin Erika Bredli, Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Vladimir Gjorgjiev çıxış edərək Azərbaycan gömrük xidməti ilə faydalı əməkdaşlıqdan, xüsusilə narkotik vasitələrin aşkar edilməsində ölkəmizin gömrük orqanlarının səmərəli fəaliyyətindən danışıblar. Qeyd olunub ki, Azərbaycan gömrüyünün müasir texnologiyalara, peşəkar kadrlara malik olması layihənin digər ölkələrlə müqayisədə daha qısa zaman kəsiyində reallaşdırılmasına şərait yaradıb.

Sonra Dövlət Gömrük Komitəsi Gömrük Nəzarətinin Təşkili və Ticarətin Asanlaşdırılması Baş İdarəsinin Beynəlxalq ticarətə dəstək şöbəsinin rəisi Rövşən Namazov "Azərbaycanda "Sərnişinlərə dair ilkin məlumat" (API) və "Sərnişin adlarının qeydiyyatı" (PNR) sistemlərinin qurulması" üzrə görülən işlər, o cümlədən yeni yaradılan Gömrük Sərnişin Məlumat Mərkəzinin funksiyaları və məqsədləri" barədə təqdimat nümayiş etdirib.

Xatırladaq ki, "Sərnişinlərə dair ilkin məlumat" (API) və "Sərnişin adlarının qeydiyyatı" (PNR) sistemlərinin qurulması üzrə aidiyyəti dövlət qurumlarının nümayəndələrindən ibarət yaradılmış işçi qruplara Dövlət Gömrük Komitəsi rəhbərlik edir.

Daha sonra Mərkəzin açılışında səmərəli fəaliyyətlərinə görə Böyük Britaniyanın Sərhəd Xidməti və BMT-nin aidiyyəti qurumlarının əməkdaşlarına "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 30 illiyi (1992-2022)" Azərbaycan Respublikasının yubiley medalları təqdim olunub.

Tədbirin sonunda Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin inzibati binasında yerləşən Gömrük Sərnişin Məlumat Mərkəzinin rəsmi açılışı olub. Mərkəzin fəaliyyəti ilə yaxından tanış olan tədbir iştirakçılarına "goTravel" risk idarəetmə sisteminin tətbiqi ilə bağlı təqdimat nümayiş etdirilib.

Ümumdünya Gömrük Təşkilatının Baş katibi ADA Universitetində məruzə ilə çıxış edib

Yanvarın 29-da Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriya ADA Universitetində "Postpandemiya dövründə dayanıqlı ticarətin təmin edilməsində gömrüyün artan rolu" mövzusunda məruzə ilə çıxış edib. Tədbirdə Dövlət Gömrük Komitəsinin rəhbərliyi, ADA Universitetinin, Dövlət Gömrük Komitəsi Akademiyasının, Azərbaycan Dövlət İqtisad Universitetinin tələbələri iştirak edib.

Tədbirdən əvvəl ÜGT Baş katibi ADA Universiteti ilə tanış olub, qonağa bu təhsil ocağının fəaliyyəti, tədris prosesinin təşkili barədə məlumat verilib.

ADA Universitetin prorektoru Dr. Fariz İsmayılzadə Ümumdünya Gömrük Təşkilatı və qurumun rəhbəri Kunio Mikuriyanın fəaliyyəti haqqında məlumat verərək məruzənin gömrük orqanlarının post-pandemiya dövründəki fəaliyyətinin öyrənilməsi baxımından xüsusi önəm daşıdığını vurğulayıb.

ÜGT Baş katibi məruzəsində gömrük işinin əhəmiyyətindən, Ümumdünya Gömrük Təşkilatının fəaliyyətindən danışıb. Beynəlxalq ticarətin asanlaşdırılmasında gömrük orqanlarının xüsusi rol oynadığını bildirən Baş katib rəhbərlik etdiyi təşkilat tərəfindən bu istiqamətdə həyata keçirilən layihələrdən, informasiya texnologiyalarının gömrük sistemində tətbiqinin vacibliyindən, beynəlxalq əməkdaşlığın gücləndirilməsi, gömrük orqanlarının fəaliyyətinin əlaqələndirilməsi istiqamətindən görülən işlərdən bəhs edib.

Pandemiya dövründə beynəlxalq ticarətin qarşılaşdığı problemlərin aradan qaldırılması istiqamətində Ümumdünya Gömrük Təşkilatı tərəfindən atılan addımlardan bəhs edən Kunio Mikuriya, xüsusilə virusla mübarizə çərçivəsində zəruri dərman preparatlarının, vaksinlərin vaxtında təyinat nöqtəsinə çatdırılmasında gömrük orqanlarının fəaliyyətini müsbət qiymətləndirib.

Kunio Mikuriya gömrük işinin səmərəli təşkilində insan kapitalının xüsusi rol oynadığını və Azərbaycan gömrüyünün bu istiqamətdə mühüm işlər gördüyünü vurğulayıb.

Baş katib dünən Prezident İlham Əliyevlə görüşünü məmnunluqla xatırlayaraq Şərq-Qərb nəqliyyat dəhlizi uzərində strateji movqedə yerləşən Azərbaycanın regional inteqrasiyada əhəmiyyətli rolundan bəhs etdiklərini, bu istiqamətdə perspektivlərin müzakirə olunduğunu da diqqətə çatdırıb.

Məruzədən sonra ÜGT Baş katibi auditoriyanın suallarını ətraflı cavablandırıb.

DGK Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsi

"Gömrük sistemində islahatlar: nəticələr, perspektivlər" mövzusunda təlim keçirilib

Yanvarın 24-25 tarixlərində media nümayəndələri üçün "Gömrük sistemində islahatlar: nəticələr, perspektivlər" mövzusunda təlim keçirilib.

Dövlət Gömrük Komitəsi və Medianın İnkişafı Agentliyinin birgə təşkilatçılığı ilə keçirilən təlimdə 40-a yaxın media qurumunun nümayəndəsi iştirak edib.

Təlimin açılış mərasimində Dövlət Gömrük Komitəsi Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi Natiq Axundov bildirib ki, məqsəd Prezident İlham Əliyev tərəfindən gömrük sistemində həyata keçirilən islahatlar çərçivəsində tətbiq edilən yeniliklər, layihələr və dəyişikliklərlə bağlı jurnalistləri məlumatlandırmaqdır. Medianın İnkişafı Agentliyi (MEDİA) ilə birgə təşkil edilən bu tədbir həm də gömrük-media əlaqələrinin daha da gücləndirilməsində, sahəvi jurnalistikanın inkişafında, media nümayəndələrinin gömrük sahəsindəki biliklərinin artırılmasında mühüm rol oynayacaq.

Medianın İnkişafı Agentliyinin nümayəndəsi Pərvanə İbrahimova bildirib ki, ölkənin müxtəlif orqanlarında gerçəkləşdirilən islahatlar barədə məlumatların cəmiyyətə düzgün çatdırılması, müxtəlif hədəf qruplarının bu sahədə baş verən dəyişikliklərin məzmun və mahiyyətindən zamanında xəbərdar olması, bu xüsusda dövlət qurumlarının media subyektləri ilə peşəkar əməkdaşlığının gücləndirilməsi Medianın İnkişafı Agentliyi tərəfindən daim diqqət mərkəzində saxlanılır. MEDİA jurnalistlərin sahəvi biliklərinin artırılması məsələlərinə xüsusi önəm verir və Dövlət Gömrük Komitəsi ilə birgə keçirilən bu təlimin faydalı olacağına əminik.

Sonra təlim başlayıb. Təlimin ilk günündə Dövlət Gömrük Komitəsinin mütəxəssisləri tərəfindən gömrük sahəsində risklərin idarə edilməsi, informasiya texnologiyalarının tətbiqi, hüquqpozmalarla mübarizə, fiskal fəaliyyət, "Yaşıl dəhliz" buraxılış sistemi, avtonəqliyyat vasitələrinin rəsmiləşdirilməsi prosesindəki dəyişikliklərə dair təqdimatlar nümayiş etdirilib. Eyni zamanda, Medianın İnkişafı Agentliyinin mütəxəssisləri "Media islahatları: əsas hədəflər" mövzusunda təqdimatla çıxış ediblər.

Təlim çərçivəsində jurnalistlərin Dövlət Gömrük Komitəsi Cənub Ərazi Baş Gömrük İdarəsinin "Astara" gömrük postuna səfəri təşkil olunub. Burada jurnalistlər gömrük sistemində tətbiq edilən yenilikləri əyani şəkildə müşahidə etmək imkanı əldə ediblər.

Təlimin sonuncu günündə isə DGK Əməliyyat-İstintaq Baş İdarəsi rəisinin birinci müavini Güloğlan Muradlı "Qaçaqmalçılıqla mübarizədə əldə olunan nailiyyətlər" adlı təqdimatla çıxış edib, gömrük hüquqpozmalarına qarşı mübarizə sahəsində görülən işlər və nəticələr barədə danışıb.

DGK Gömrük Tariflərinin Tənzimlənməsi və Ödənişlər Baş İdarəsi rəisinin müavini Əsgər Məmmədov isə "Avtonəqliyyat vasitələrinin rəsmiləşdirilməsi prosesindəki dəyişikliklər" mövzusunda təqdimatla çıxış edib.

Sonra mövzularla bağlı jurnalistlərin sualları cavablandırılıb.

Təlimin bağlanış mərasimində Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, gömrük xidməti general-leytenantı İsmayıl Hüseynov iştirakçıları Komitə rəhbərliyi adından salamlayaraq Medianın İnkişafı Agentliyi ilə Dövlət Gömrük Komitəsinin birgə təşkil etdiyi tədbirə qatılan jurnalistlərə təşəkkürünü bildirib.

Qeyd olunub ki, milli mətbuatın inkişafı, söz və informasiya azadlığının təmin olunması sahəsində təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan siyasəti bu gün Prezident İlham Əliyev uğurla davam etdirir. Məhz dövlət başçısının və birinci vitse-prezident Mehriban Əliyevanın yorulmaz fəaliyyəti, qayğısı sayəsində media qurumlarına, jurnalistlərə hərtərəfli dəstək göstərilir, bu sahənin inkişafı üçün layihələr, xüsusi proqramlar həyata keçirilir.

İsmayıl Hüseynov yaxın günlərdə bir yaşını qeyd edən Medianın İnkişafı Agentliyinin qısa dövr ərzindəki səmərəli fəaliyyətindən danışıb, milli mətbuatın üzərinə düşən çətin və şərəfli missiyanı uğurla yerinə yetirdiyini diqqətə çatdırıb. Vurğulanıb ki, 44 günlük Vətən müharibəsi zamanı informasiya cəbhəsində qazanılan nailiyyətlərdə medianın rolu bunun parlaq örnəyidir.

DGK sədrinin birinci müavini Azərbaycan gömrük xidmətinin də media qurumları və jurnalistlərlə münasibətləri şəffaf, səmərəli və işgüzar müstəvidə qurmağa çalışdığını, xüsusilə də son 4 ildə gömrük-media münasibətlərində yeni dövrün başladığını diqqətə çatdırıb. Prezident İlham Əliyev tərəfindən gömrük sistemində aparılan islahatların mahiyyətinin, gömrük orqanlarının fəaliyyəti haqqında doğru, düzgün məlumatların geniş ictimaiyyətə çatdırılmasında medianın roluna toxunan İsmayıl Hüseynov bu istiqamətdə Komitəyə göstərilən dəstəyə, peşəkar yanaşmaya görə təşəkkürünü ifadə edib.

Sonra Medianın İnkişafı Agentliyinin şöbə müdiri Natiq Məmmədli çıxış edərək bildirib ki, bu tədbir sahəvi jurnalistikanın formalaşmasında mühüm əhəmiyyət kəsb edir və jurnalist araşdırmalarında ilkin mənbədən alınan bu məlumatlardan geniş istifadə olunacaqdır. Dövlət Gömrük Komitəsinin media savadlılığı istiqamətində fəaliyyətini yüksək qiymətləndirən şöbə müdiri bunu nümunəvi fəaliyyət kimi xarakterizə edib.

Daha sonra təlimdə iştirakçıların əldə etdikləri biliklərin qiymətləndirilməsi aparılıb və fərqlənən jurnalistlər mükafatlandırılıb.

Təlimdə iştirak edən media nümayəndələrinə sertifikatlar da təqdim olunub.

ÜGT-nin Avropa Regionu üçün elektron ticarət üzrə onlayn seminarı

Yanvarın 24-28 tarixlərində Ümumdünya Gömrük Təşkilatının Avropa Regionu üçün nəzərdə tutulan elektron ticarət üzrə onlayn seminarı keçirilib.



Seminarda Azərbaycan Respublikasını Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, gömrük xidməti general-leytenantı İsmayıl Hüseynov təmsil edib.

İsmayıl Hüseynov seminarda bildirib ki, koronavirus pandemiyasının beynəlxalq pərakəndə ticarətdə bir sıra məhdudiyyətlər yaratması xarici ticarət əməliyyatlarında qlobal elektron ticarətin həcmi ildən-ilə yüksəlir. Buna görə də ÜGT-nin Avropa Regionu üçün nəzərdə tutulan elektron ticarət üzrə seminarı elektron xidmətlərin, müasir texnologiyaların və mütərəqqi beynəlxalq təcrübənin tətbiqi, eləcə də bu sahədə bilik və bacarıqların artırılması və təcrübə mübadiləsi istiqamətində informasiya texnologiyalarının sürətli inkişafının əhəmiyyətini önə çıxarır.

DGK sədrinin birinci müavini qeyd edib ki, Azərbaycanda əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan milli dövlət quruculuğu və inkişaf strategiyası Prezident İlham Əliyev tərəfindən uğurla və qlobal çağırışlara uyğun davam etdirilir. Digər sahələrlə yanaşı, iqtisadi sahədə aparılan islahatların da məqsədi dayanıqlı iqtisadiyyatın və əlverişli biznes mühitinin təmin olunması, beynəlxalq ticarətin asan və sürətli şəkildə həyata keçirilməsidir.

Diqqətə çatdırılıb ki, Azərbaycanın yerləşdiyi əlverişli geostrateji mövqeyi tranzit və logistika imkanlarının genişlənməsi, beynəlxalq elektron ticarət məhsullarının poçt vasitəsilə daşınma və çatdırılması, ümumilikdə regionda beynəlxalq ticarətin inkişafı baxımından öz töhfəsini verir. 30 illik Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulması və Azərbaycanın tarixi qələbəsi ilə nəticələnən 44 günlük Vətən müharibəsi regionda sülhün və inkişafın bərqərar olmasına əsaslı zəmin yaradıb. 10 noyabr 2020-ci il tarixdə imzalanan üçtərəfli bəyanatda əksini tapmış yeni nəqliyyat kommunikasiyalarının açılması regionda ticarət həcminin əhəmiyyətli dərəcədə artmasına, qloballaşan dünyada beynəlxalq ticarətin maneəsiz inkişafına öz töhfəsini verəcəkdir.

İsmayıl Hüseynov bildirib ki, ölkə ərazisində elektron ticarət iqtisadiyyatın prioritet sahələrindən birinə çevrilib. Elektron ticarətin inkişafı və təkmilləşdirilməsilə bağlı islahatlar fonunda müasir texnologiyaların tətbiqi ilə elektron layihələrin həyata keçirilməsi Dövlət Gömrük Komitəsinin daim diqqət mərkəzində olub. Elektron ticarətin daha şəffaf və sürətli şəkildə həyata keçirilməsinə, xidmət səviyyəsinin yüksəldilməsinə, gömrük statistikasının düzgün aparılmasına, mövcud resurslardan səmərəli şəkildə istifadə edilməsinə şərait yaradacaq layihələrə "e.customs.gov.az" portalı və "Smart Customs" mobil tətbiqini nümunə göstərmək olar.

Çıxışının sonunda DGK sədrinin birinci müavini bir daha nəzərə çatdırıb ki, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ticarətin rəqəmsallaşdırılması üzrə səylərini daha ciddi şəkildə artırır və müasir texnologiyanın tətbiqi ilə modern sərhəd idarəçiliyi, eləcə də "bir pəncərə" sisteminin tətbiqi nəticəsində vahid sistemə inteqrasiya sahəsində bir çox uğurlar əldə edib.

Ötən il ərzində 17144 hüquqpozma faktı aşkar edilib

2021-ci il ərzində Azərbaycan Respublikasının gömrük orqanları tərəfindən əməliyyat-axtarış və hüquq-mühafizə fəaliyyətinin gücləndirilməsi istiqamətində həyata keçirilmiş kompleks tədbirlər nəticəsində 17144 hüquqpozma faktı aşkar edilib.

Bu faktlardan 418-i cinayət xarakterli faktlar olub və həmin faktlar üzrə tutulmuş qaçaqmalçılıq əşyalarının və digər cinayət predmetlərinin dəyəri 6 milyon 504 min manatdan çox təşkil edib. Bu əməllərin törədilməsində şübhəli bilinən 427 nəfərin (333 Azərbaycan vətəndaşı, 94 əcnəbi) barəsində müvafiq tədbirlər görülüb.

Gömrük orqanları tərəfindən (o cümlədən digər hüquq-mühafizə orqanları ilə birlikdə) görülən tədbirlər nəticəsində 2021-ci il ərzində narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə əlaqədar 55 fakt aşkar olunub. Bu faktlar üzrə ümumilikdə 3 ton 43 kq 507 qramdan çox narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları qanunsuz dövriyyədən götürülüb.

2020-ci illə müqayisədə 2021-ci ildə götürülmüş narkotiklərin miqdarı 2 dəfədən çox artıb. 2021-ci ildə götürülmüş narkotiklərin içərisində daha ağır və təhlükəli narkotiklər olan heroin və metamfetaminin xüsusi çəkisinin kəskin artması ciddi narahatlıq doğurur. Belə ki, 622 kq 75 qramı maye halında olmaqla 2 ton 106 kq 135 qram heroin (2020-ci illə müqayisədə 47 % çox), 194 kq 122 qram metamfetamin (2020-ci illə müqayisədə 30 dəfə çox) tutulmuşdur ki, bu da ümumi götürülmüş narkotiklərin 75%-dən çoxunu təşkil edir.

Bundan əlavə, 2021-ci ildə 698 kq 247 qram tiryək, 44 kq 672 qram həşiş, 89,9 qram kokain, 57 qram marixuana, 17,64 qram metadon, 145 qram MDMA (ekstazi), 20 qram fenobarbital və digər maddələr qanunsuz dövriyyədən çıxarılıb.

2021-ci il ərzində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən 56 nəfər: 55 kişi və 1 qadın olmaqla 22 nəfər Azərbaycan vətəndaşı, 34 nəfər əcnəbi (14 İran, 12 Türkiyə, 6 Rusiya, 1 Ukrayna və 1 Gürcüstan vətəndaşı) barəsində müvafiq tədbirlər görülüb, 3 halda bu əməlləri törədən cinayətkar dəstə ifşa edilib.

2021-ci il ərzində Azərbaycan Respublikası gömrük orqanları tərəfindən aşkar olunmuş 16726 gömrük qaydaları əleyhinə inzibati xəta faktları üzrə 1749 hüquqi şəxs (o cümlədən 481 xarici hüquqi şəxs) və 14 989 fiziki şəxs (o cümlədən 10 453 xarici vətəndaş) inzibati məsuliyyətə cəlb edilib, göstərilən şəxslərə qarşı 3 milyon 523 min 402 manat cərimə tətbiq olunmaqla, dəyəri 1 milyon 300 min 605 manat olan mallar məhkəmə orqanları tərəfindən müsadirə edilib.

Gömrük orqanları valyuta və valyuta sərvətlərinin Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi üzərində nəzarəti həyata keçirərkən qanunvericiliyin tələblərini pozan şəxslərdən 137 910 ABŞ dolları, 3 348 000 rus rublu, 41 550 avro, 6820 gürcü larisi, 50300 saxta ABŞ dolları, 2 milyon 713 min 831 manat dəyərində 7328 ədəd qızıl zinət əşyaları, sikkələr və külçələr, 23 378 manat dəyərində 428 ədəd gümüşdən hazırlanmış məişət və zinət əşyaları, 1 335 135 manat dəyərində 11 692 karat qiymətli daşlar və s. aşkar olunub.

Hesabat dövründə gömrük orqanları tərəfindən alkoqollu içkilərin, etil (yeyinti) spirtinin və tütün məmulatlarının idxalı zamanı vergidən yayınma və aksiz markalarının tətbiqi qaydalarının pozulması hallarının qarşısının alınması üçün həyata keçirilən tədbirlər nəticəsində aksiz markasız və ya digər qanunsuz yollarla ölkəyə gətirilməsinə cəhd göstərilən 310 679,7 manat dəyərində 1 780 380 ədəd xaricdə istehsal olunan siqaretlər, 147057 manat dəyərində 3389,12 litr spirtli içkilər, həmçinin aksiz markalarının tətbiqi qaydalarının pozulması halları ilə əlaqədar Azərbaycan Respublikasının aksiz markası ilə markalanmış 1 719 761 manat dəyərində 93 021,5 litr spirtli içki saxlanılıb. Bundan əlavə, 237.4 litr təşkil edən 210 ədəd saxta aksiz markası ilə markalanmış müxtəlif markalı spirtli içkilərin qanunsuz dövriyyəsinin qarşısı alınıb.

Bundan əlavə, hesabat dövründə gömrük orqanları tərəfindən 210812 manat dəyərində 2200 ədəd kosmetika, 965 465 manat dəyərində 1504 ədəd mobil telefon və 6464 ədəd mobil telefonların aksesuarları, 363411 manat dəyərində mis, 263257 manat dəyərində məişət texnikası və əşyaları, 274033 pirotexniki məmulatlar, 2 ədəd pnevmatik silah, 390 ədəd soyuq silah və xeyli miqdarda digər mallar tutulub. Sözügedən dövrdə gömrük orqanları tərəfindən 101 hüquqpozma faktı üzrə 749 435 manat dəyərində dərman vasitələrinin, 255 582 manat dəyərində qida əlavələrinin, 40472 manat dəyərində tibbi ləvazimatların qanunsuz dövriyyəsinin qarşısı alınıb.

DGK Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsi

Gömrük zəmanət sistemi barədə məlumat verilib

Yanvarın 27-də ölkəmizdə fəaliyyət göstərən bank və sığorta şirkətlərinin nümayəndələri üçün "Ümumi tranzit proseduru üçün gömrük zəmanət sistemi" mövzusunda seminar keçirilib.

Seminar Avropa İttifaqının dəstəyi ilə icra edilən "Ümumi Tranzit Proseduru Konvensiyası, Mallarla Ticarətdə Sənədləşmənin Sadələşdirilməsi Konvensiyası və Yeni Kompüterləşdirilmiş Tranzit Sisteminə (YKTS) qoşulmaq prosesində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinə Dəstək" tvinninq layihəsi çərçivəsində təşkil olunub.

Məqsəd ölkəmizdə bank və sığorta şirkətlərini tranzit prosedurunda gömrük zəmanətinə dair Avropa İttifaqının qanunvericiliyi ilə tanış etməkdir.

Tədbirdə Dövlət Gömrük Komitəsi Gömrük Risklərinin İdarəolunması və Audit Baş İdarəsinin rəisi Fərid Əliyev, Komitənin aidiyyəti strukturlarının əməkdaşları, İqtisadiyyat Nazirliyi, İtaliya Aksiz, Gömrük və İnhisar Agentliyinin mütəxəssisləri, bank və sığorta şirkətlərinin 30-a yaxın nümayəndəsi iştirak edib.

Seminarın açılış mərasimində Avropa ilə Asiya arasında körpü rolu oynayan və mühüm nəqliyyat dəhlizlərini özündə birləşdirən Azərbaycanda logistika sahəsində həyata keçirilən irimiqyaslı layihələrdən bəhs olunub.

Bildirilib ki, bu layihələr ölkənin tranzit imkanlarının artmasına ciddi təkan verəcək. Hazırda tranzit qanunvericiliyinin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində mühüm addımlar atılır. Yeni Kompüterləşdirilmiş Tranzit Sisteminə qoşulduqdan sonra ölkəmizin tranzit imkanları ilə yanaşı, ixrac potensialı da sürətlə artacaq. Layihənin uğurlu icrası ölkənin bank-maliyyə sektoru üçün də yeni imkanlar yaradacaq. Təlimin məqsədi də bu istiqamətdə aidiyyəti qurumların məlumatlandırılmasıdır.

Sonra İtaliya Aksiz, Gömrük və İnhisar Agentliyinin mütəxəssisləri Antonio Lo Parco, Marco Ciampi və Antonio Carroccia Ümumi Tranzit Proseduru və Yeni Kompüterləşdirilmiş Tranzit Sistemi, Ümumi Tranzit Konvensiyası çərçivəsində zəmanət sisteminin hüquqi, prosedur və əməliyyat aspektləri, Ümumi Tranzit Prosedurunda zaminlərin vəzifələri, funksiyaları və üstünlükləri mövzularında təqdimatlarla çıxış edib, seminar iştirakçılarının suallarını cavablandırıblar.

Baş redaktor N.S.AXUNDOV

«Gömrük xəbərləri» ictimai-siyasi qəzet

Redaksiyanın ünvanı: AZ 1007 Bakı şəhəri, Koveroçkin küçəsi, 30a Tel.: (012) 404 22 00

Kapital bankın 1 saylı Nəsimi rayon filialı. Hesab nömrəmiz 160233070000 kod 200112. VÖEN 1300315681

LİSENZİYA: Seriya AV №022325 Qeydiyyat nömrəsi V 125

İndeks 0178